# *Prezident İlham Əliyev:* 2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim

***Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışından sonra hərbi qulluqçularla görüşündə vaxtilə olmuş təzyiqlərdən, təhdidlərdən, çevriliş cəhdlərindən danışarkən, 2003-cü ildə prezident vəzifəsinə başlayanda düşmənin bütün cəhdlərinə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağına söz verdiyini və bu vədə əməl etdiyini xüsusi vurğulayıb. Dövlətimizin başçısı deyib:***



"2003-cü ildə Azadlıq meydanında AXC–Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da "narıncı inqilab" dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15–17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır. Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi".

Prezident, həmçinin qeyd edib ki, bütün təzyiqlərə, bütün cəhdlərə baxmayaraq, Qarabağ məsələsində güzəştə getmədi, ölkəmizin ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmadı, olmayacaq və həyat da bunu təsdiqlədi.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, həqiqətən də, dövlətimizin başçısının Azərbaycana rəhbərliyi dövründə ölkəmizin ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb. Prezident İlham Əliyev yalnız BMT Təhlükəsizlik Şurasının – dünyanın ali beynəlxalq qurumunun 4 qətnaməsini rəhbər tutaraq, erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Eyni zamanda, bu dövrdə dövlətimizin başçısının beynəlxalq müstəvidə səmərəli fəaliyyətinin nəticəsi olaraq ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyi müdafiə olunub. Lakin bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanınması, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz işğal edilən bu torpaqlarımızdan çıxarılması qeyd olunmasına baxmayaraq, 30 ilə yaxın bir dövrdə həmin qətnamələr kağız üzərində qalmışdı. Bununla bərabər, Minsk qrupu çərçivəsində danışıqlar da heç bir bir nəticə verməmiş, Ermənistan isə ardıcıl olaraq hərbi təxribatlar törətmişdi.

Bütün bunlara son qoymaq üçün ordumuz ötən il sentyabrın 27-də işğalçı Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini reallaşdırmaq məqsədilə özünümüdafiə hüququ çərçivəsində, beynəlxalq humanitar hüquqa əsaslanmaqla əks-hücum və cavab tədbirləri gerçəkləşdirdi. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti və əzmi, maddi-texniki bazası, ordu–xalq–Prezident birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdi. Beləliklə, 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi, ərazi bütövlüyü kimi taleyüklü bir problemimiz öz həllini tapdı.

Vətən müharibəsi başa çatan kimi, Azərbaycan düşməndən təmizlənən ərazilərimizdə bərpa-quruculuq işlərinə başlayıb. Onu da qeyd edək ki, erməni barbarları tərəfindən 30 il ərzində torpaqlarımız işğal altında saxlanılmaqla, istismar edilməklə, təbii resurslarımız oğurlanmaqla, kəndlərimiz, şəhərlərimiz dağıdılmaqla bərabər, ərazilərimiz minalanıb.

Ərazilərimizin minalardan təmizlənməsindən söhbət düşmüşkən, Prezident İlham Əliyevin aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində bununla bağlı bir məqamı xatırladaq: "İndiki mərhələdə orada müxtəlif istiqamətlər üzrə işlər görülür, minalardan təmizləmə prosesi gedir. Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək...".

Ölkə rəhbəri daha sonra minatəmizləmə işlərinin sürətlə aparılması üçün yeni avadanlıq alındığını, Minatəmizləmə Agentliyinin ştat vahidlərinin artırıldığını, Türkiyə və Rusiyanın, eləcə də Azərbaycan Müdafiə Nazirliyinin bu məsələdə fəallıq göstərdiklərini diqqətə çatdırıb.

Xatırladaq ki, bu gün düşməndən təmizlənən torpaqlarda minatəmizləmə əməliyyatları ilə paralel olaraq əsas infrastruktur layihələri də reallaşdırılır. Ərazilərin elektrik təchizatı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir, həm xətlər çəkilir, həm də yeni yarımstansiyalar tikilir. Hazırda Şuşa şəhərinin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur. Bu gün Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa edilir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər uğurla gedir. Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Bərdə–Ağdam, Göygöl–Toğanalı–Kəlbəcər avtomobil yollarının tikintisi sürətlə aparılır. Bununla paralel olaraq Bərdə–Ağdam və Horadiz–Zəngilan–Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə qədər uzanacaq və artıq işlər cədvəl üzrə görülür.



Qarabağın su təsərrüfatı, meliorasiya sistemi demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları işləksiz haldadır. Həmin infrastruktur obyektlərinin bərpası üçün Tədbirlər Proqramı hazırlanaraq yaxın vaxtlarda icrasına başlanılması nəzərdə tutulur.

Hazırda Füzulidən Şuşaya və Göygölün Toğanalı kəndindən Murovdağ silsiləsini keçməklə Kəlbəcər–İstisu istiqamətində yeni avtomobil yollarının tikintisi həyata keçirilir. Bərdə–Ağdam dəmir yolu xətti yenidən qurulur. Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Horadiz–Ağbənd dəmir yolu xəttinin gerçəkləşdirilməsi istiqamətində də işlər uğurla reallaşdırılır.

Füzuli Beynəlxalq Hava Limanının tikintisi də sürətlə aparılır. Yaxın gələcəkdə Zəngilan rayonunda da yeni hava limanının inşasına start veriləcəyi, üçüncü hava limanının isə Laçın rayonu ərazisində salınacağı nəzərdə tutulur.

Prezident İlham Əliyev bərpa olunan yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqini xüsusi diqqət mərkəzində saxlayır. Bu isə Qarabağın yaxın gələcəkdə "ağıllı region" kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Bu baxımdan Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərində ilk olaraq "ağıllı kənd" layihəsinin həyata keçirilməsi mühüm önəm daşıyır.

İnşa ediləcək "ağıllı kənd"lərdə sakinlərin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələri hesabına ödəniləcək. Eyni zamanda, texnoloji innovasiyaların tətbiqi istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji kimi sahələrin inkişafını sürətləndirəcək.

Bir müddət bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, təmiz ətraf mühitin təmin olunması və Azərbaycanın "yaşıl artım" ölkəsinə çevrilməsi kimi məsələlər yaxın onilliyin əsas strateji istiqaməti kimi göstərilib.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında 19 aprel 2021-ci il tarixli sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların səmərəli istifadəsi, habelə idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir.

Sonda qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva aprelin 26-da Zəngilanda olarkən, dövlətimizin başçısı tərəfindən rayonun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***